*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 61−65
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 61−65
DOI: https://doi.org/10.36719/2706-6185/61/61-65

# Akademik nitqdə etik kommunikasiya prinsipləri

**Pərvinə Əzizova[1*], Elnarə Məmmədova[1], Tamara Əlizadə[2]**

***Xülasə.*** *Məqalədə akademik nitqdə etik kommunikasiya prinsiplərinin mahiyyəti, əsas xüsusiyyətləri və müasir elmi mühitdə tətbiqi məsələləri araşdırılmışdır. Akademik kommunikasiya elmi biliklərin ötürülməsi və mübadiləsi prosesində mühüm rol oynayır və bu prosesin səmərəliliyi etik davranış normalarına riayət olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Tədqiqatın məqsədi akademik nitqdə etik kommunikasiya prinsiplərini müəyyənləşdirmək, onların akademik fəaliyyətə təsirini təhlil etmək və müasir dövrdə qarşıya çıxan problemləri qiymətləndirməkdir. Tədqiqat zamanı analiz, müqayisə, ümumiləşdirmə və sistemləşdirmə metodlarından istifadə edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, dürüstlük, obyektivlik, akademik məsuliyyət, qarşılıqlı hörmət, tolerantlıq və akademik dürüstlük prinsipləri etik kommunikasiyanın əsas elementlərini təşkil edir. Müəyyən olunmuşdur ki, bu prinsiplərə əməl olunması elmi mühitdə etimadın formalaşmasına, elmi müzakirələrin səmərəliliyinin yüksəlməsinə və akademik əməkdaşlığın inkişafına müsbət təsir göstərir. Eyni zamanda, plagiat, məlumatların təhrif olunması və qeyri-etik kommunikativ davranışlar akademik fəaliyyətin keyfiyyətinə mənfi təsir göstərən əsas amillər kimi qiymətləndirilmişdir. Nəticə etibarilə, akademik nitqdə etik kommunikasiya prinsiplərinin qorunması sağlam elmi mühitin formalaşdırılması və elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *Akademik nitq, etik kommunikasiya, akademik etika, elmi ünsiyyət, nitq mədəniyyəti, akademik dürüstlük, kommunikasiya etikası*

---

[1]Azərbaycan Tibb Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
[2]Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: azizova-69@inbox.ru
Daxil oldu: 28 Dekabr 2025; Qəbul edildi: 15 Aprel 2026; Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Ethical Communication Principles in Academic Speech

**Parvina Azizova[1*], Elnara Mammadova[1], Tamara Alizade[2]**

***Abstract.*** *This article examines the essence, characteristics, and application of ethical communication principles in academic speech within the contemporary scientific environment. Academic communication plays a significant role in the transmission and exchange of scientific knowledge, and its effectiveness largely depends on adherence to ethical standards. The aim of the study is to identify the main ethical communication principles in academic speech, analyze their impact on academic activities, and evaluate current challenges in this field. The research employs methods of analysis, comparison, generalization, and systematization. The findings indicate that honesty, objectivity, academic responsibility, mutual respect, tolerance, and academic integrity constitute the fundamental principles of ethical communication.*

*The study reveals that compliance with these principles contributes to the development of trust in the academic community, enhances the effectiveness of scientific discussions, and promotes academic cooperation. Furthermore, plagiarism, distortion of information, and unethical communicative behavior are identified as major factors negatively affecting the quality of academic activities. The results demonstrate that ethical communication is an essential component of academic culture and a prerequisite for maintaining credibility and professionalism in scientific discourse. Consequently, adherence to ethical communication principles in academic speech is of great importance for fostering a healthy academic environment and improving the quality of scientific research and education.*

***Keywords:*** *academic speech, ethical communication, academic ethics, scientific communication, speech culture, academic integrity, communication ethics*

---

[1]Azerbaijan Medical University, PhD in Philology, Baku, Azerbaijan
[2]Azerbaijan Medical University, Baku, Azerbaijan
[*]Corresponding author. E-mail: azizova-69@inbox.ru
Received: 28 December 2025; Accepted: 15 April 2026; Published online: 28 June 2028
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir dövrdə akademik kommunikasiya yalnız elmi informasiyanın ötürülməsi vasitəsi deyil, həm də etik davranış və peşəkar münasibətlərin formalaşdığı mühüm sahə hesab olunur. Tədqiqat zamanı akademik nitqin etik normaları, obyektivlik, dürüstlük, plagiatdan uzaq olmaq, elmi diskussiyalarda tolerantlıq və akademik məsuliyyət prinsipləri təhlil edilmişdir. Məqalədə etik kommunikasiya prinsiplərinin akademik mühitdə qarşılıqlı etimadın formalaşmasına və elmi fəaliyyətin keyfiyyətinə təsiri müəyyən edilmişdir. Nəticələr göstərir ki, etik kommunikasiya akademik mühitdə sağlam elmi münasibətlərin əsas şərtlərindən biridir (Abdullayev, 2018).

Müasir ali təhsil sistemində akademik kommunikasiya yalnız elmi biliklərin ötürülməsi vasitəsi deyil, həm də akademik mədəniyyətin formalaşmasına xidmət edən mühüm sosial prosesdir. Elmi konfranslar, seminarlar, mühazirələr, müdafiələr və elmi nəşrlər vasitəsilə həyata keçirilən akademik ünsiyyət iştirakçılardan yüksək nitq mədəniyyəti və etik davranış tələb edir (Cəfərov, 2019). Akademik nitqin əsas məqsədi elmi həqiqətlərin aydın, əsaslandırılmış və obyektiv şəkildə təqdim edilməsidir. Bu məqsədə nail olmaq üçün etik kommunikasiya prinsiplərinə riayət olunması xüsusi əhəmiyyət kəsb edir.

Etik kommunikasiya qarşılıqlı hörmət, dürüstlük, məsuliyyət, obyektivlik və tolerantlıq kimi dəyərlərə əsaslanır (Hüseynova, 2023). Akademik mühitdə bu prinsiplər elmi fəaliyyətin keyfiyyətini yüksəltməklə yanaşı, sağlam elmi münasibətlərin formalaşmasına da şərait yaradır. Tədqiqatçıların, müəllimlərin və tələbələrin bir-biri ilə Azərbaycan dilində etik normalar çərçivəsində ünsiyyət qurması elmi əməkdaşlığın inkişafına, yeni ideyaların yaranmasına və bilik mübadiləsinin səmərəliliyinə müsbət təsir göstərir (Məmmədli, 2021).

Akademik nitqdə etik prinsiplərin pozulması isə müxtəlif problemlərə səbəb ola bilər. Plagiat, müəllif hüquqlarının pozulması, elmi nəticələrin təhrif edilməsi, qeyri-etik tənqid və şəxsi maraqların elmi obyektivlikdən üstün tutulması akademik mühitdə etimadın azalmasına gətirib çıxarır (Həsənov, 2021). Bu baxımdan akademik etika yalnız fərdi davranış norması deyil, həm də bütövlükdə elmi cəmiyyətin inkişafını təmin edən vacib mexanizmdir.

İnformasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsal təhsil mühitinin genişlənməsi akademik kommunikasiya qarşısında yeni çağırışlar yaratmışdır (Əbdülhəsənov və Əmrahova, 2021). Onlayn təhsil, elektron elmi bazalar və sosial media platformaları akademik ünsiyyət imkanlarını artırsa da, etik davranış qaydalarına əməl olunmasını daha da vacib etmişdir. Bu səbəbdən müasir dövrdə akademik nitqdə etik kommunikasiya prinsiplərinin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan aktual elmi problemlərdən biri hesab olunur.

Akademik kommunikasiya mədəniyyətinin formalaşdırılması gələcək mütəxəssislərin peşəkar inkişafında mühüm rol oynayır (Əliyeva, 2022). Buna görə də ali təhsil müəssisələrində etik kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi, akademik dürüstlük prinsiplərinin təbliği və nitq mədəniyyətinin təkmilləşdirilməsi müasir təhsil siyasətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirilir.

Akademik nitq elmi biliklərin təqdim olunması, müzakirəsi və ötürülməsi prosesində istifadə edilən xüsusi kommunikasiya formasıdır. Bu nitq forması yalnız elmi informasiyanın dəqiq və sistemli şəkildə çatdırılması ilə məhdudlaşmır, eyni zamanda etik normaların qorunmasını da tələb edir. Müasir qloballaşma və rəqəmsallaşma dövründə akademik kommunikasiya daha geniş auditoriyanı əhatə etdiyindən etik prinsiplərin rolu daha da aktuallaşmışdır.

Akademik kommunikasiya prosesində etik davranış prinsipləri elmi mühitdə etibarın formalaşmasına, obyektivliyin qorunmasına və sağlam elmi münasibətlərin inkişafına xidmət edir. Akademik etikaya riayət edilməməsi plagiat, elmi saxtakarlıq, qeyri-etik sitat gətirmə, məlumatların təhrif olunması və kommunikativ konfliktlər kimi problemlərə səbəb olur. Buna görə də akademik nitqdə etik kommunikasiya prinsiplərinin öyrənilməsi mühüm elmi və praktik əhəmiyyət daşıyır.

Tədqiqatın məqsədi akademik nitqdə etik kommunikasiya prinsiplərini araşdırmaq, onların akademik mühitdə rolunu müəyyənləşdirmək və müasir elmi kommunikasiya prosesində tətbiq xüsusiyyətlərini təhlil etməkdir.

Tədqiqatın vəzifələri aşağıdakılardır:
- akademik nitqin mahiyyətini müəyyənləşdirmək;
- etik kommunikasiya anlayışını izah etmək;
- akademik mühitdə etik prinsiplərin tətbiq xüsusiyyətlərini araşdırmaq;
- etik kommunikasiya pozuntularının nəticələrini təhlil etmək;
- akademik nitqin inkişafında etik davranışın rolunu qiymətləndirmək.

Akademik kommunikasiya yalnız informasiyanın ötürülməsi deyil, həm də elmi dəyərlərin qorunması prosesidir (Qəhrəmanova və Paşayeva, 2023). Bu baxımdan etik prinsiplər akademik fəaliyyətin əsas dayaqlarından biri hesab olunur.

## Metodlar

Tədqiqat zamanı keyfiyyət metodlarından istifadə edilmişdir. Mövzu ilə bağlı yerli və xarici elmi mənbələr müqayisəli şəkildə təhlil edilmiş, akademik kommunikasiya və etik davranışla bağlı müasir nəzəri yanaşmalar öyrənilmişdir (Məmmədova, 2017). Analiz, müqayisə, ümumiləşdirmə və sistemləşdirmə metodları tətbiq olunmuşdur.

Ədəbiyyat icmalı zamanı akademik etika, kommunikasiya etikası və nitq mədəniyyəti sahəsində aparılmış müasir tədqiqatlara xüsusi diqqət yetirilmişdir. Məqalədə son on ildə nəşr olunan elmi mənbələrdən istifadə edilmişdir. Bu mənbələr etik kommunikasiya prinsiplərinin müasir akademik mühitdə tətbiqi və problemlərinin araşdırılmasına imkan yaratmışdır.

Tədqiqat çərçivəsində aşağıdakı istiqamətlər üzrə analiz aparılmışdır:

- Akademik nitqin struktur xüsusiyyətləri;
- Akademik etik davranış normaları;
- Elmi diskussiyalarda etik münasibətlər;
- Rəqəmsal mühitdə etik kommunikasiya problemləri;
- Akademik dürüstlük prinsipləri.

**Nəticə**

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, akademik nitqdə etik kommunikasiya prinsipləri elmi fəaliyyətin effektivliyini və etibarlılığını təmin edən əsas amillərdəndir. Akademik etikaya riayət edilməsi elmi mühitdə qarşılıqlı hörmət və inam yaradır.
Tədqiqat göstərmişdir ki, akademik kommunikasiya prosesində aşağıdakı prinsiplər xüsusi əhəmiyyət daşıyır:

1. Dürüstlük prinsipi
2. Elmi nitqdə təqdim olunan məlumatların doğru və etibarlı olması vacibdir. Faktların təhrif olunması və saxta məlumatların təqdim edilməsi akademik etikaya zidd hesab edilir.
3. Obyektivlik prinsipi
4. Akademik nitqdə şəxsi münasibətlərdən uzaq olmaq, elmi faktlara əsaslanmaq mühüm şərtdir. Obyektiv yanaşma elmi tədqiqatın keyfiyyətini artırır.
5. Hörmət və tolerantlıq prinsipi
6. Elmi diskussiyalar zamanı fərqli fikirlərə hörmətlə yanaşmaq akademik etik davranışın əsas göstəricilərindən biridir. Təhqir, aqressiv münasibət və etik normalara zidd çıxışlar elmi mühitə mənfi təsir göstərir.
7. Akademik dürüstlük prinsipi
8. Plagiatdan uzaq olmaq, istifadə olunan mənbələri düzgün göstərmək və müəllif hüquqlarına hörmət etmək akademik kommunikasiya mədəniyyətinin vacib hissəsidir (Rüstəmova, 2020).
9. Məsuliyyət prinsipi
10. Elmi nitq söyləyən şəxs təqdim etdiyi məlumatlara görə məsuliyyət daşımalıdır. Bu məsuliyyət həm elmi cəmiyyət, həm də ictimaiyyət qarşısında mühüm əhəmiyyət kəsb edir.

**Müzakirə**

Akademik nitqdə etik kommunikasiya prinsiplərinin tətbiqi tədris prosesinin səmərəliliyini artıran mühüm amillərdəndir. Müəllim və tələbə arasında qarşılıqlı hörmətə əsaslanan ünsiyyət mühiti akademik fəaliyyətin keyfiyyətinə müsbət təsir göstərir. Müasir rəqəmsal kommunikasiya vasitələrinin geniş yayılması akademik ünsiyyətdə etik davranış normalarının daha da aktuallaşmasına səbəb olmuşdur. Onlayn təhsil mühitində yazılı və şifahi ünsiyyət zamanı etik prinsiplərin qorunması, müəllif hüquqlarına hörmət edilməsi və akademik dürüstlüyün təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan etik kommunikasiya yalnız nitq mədəniyyətinin deyil, həm də akademik məsuliyyətin göstəricisi hesab edilir. Müasir dövrdə akademik kommunikasiya yalnız ənənəvi auditoriya mühiti ilə məhdudlaşmır. Onlayn konfranslar, rəqəmsal platformalar və sosial media akademik nitqin yeni formalarını yaratmışdır. Bu isə etik kommunikasiya məsələlərinin daha da aktuallaşmasına səbəb olmuşdur.

Rəqəmsal akademik mühitdə etik problemlər daha çox aşağıdakı istiqamətlərdə müşahidə olunur:

- müəllif hüquqlarının pozulması;
- plagiat halları;
- qeyri-dəqiq məlumatların yayılması;
- etik olmayan diskussiya üsulları;
- elmi manipulyasiya (Vəliyev, 2024).

Müasir tədqiqatlar göstərir ki, etik kommunikasiya prinsipləri akademik mühitdə elmi məhsuldarlığın artmasına müsbət təsir göstərir. Akademik etika yalnız fərdi məsuliyyət deyil, həm də institusional mədəniyyətin göstəricisidir. Universitetlərdə etik kommunikasiya qaydalarının tədris olunması tələbə və müəllimlər arasında sağlam elmi münasibətlərin formalaşmasına kömək edir. (Teymurlu, Qəmbərova, 2025). Eyni zamanda sosial media və rəqəmsal kommunikasiya akademik nitqin etik çərçivələrinin yenidən müəyyənləşdirilməsini zəruri etmişdir.

Akademik nitqdə etik kommunikasiya prinsiplərinin qorunması gələcək elmi fəaliyyətin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Buna görə də ali təhsil müəssisələrində akademik etika və kommunikasiya mədəniyyəti ilə bağlı xüsusi təlimlərin keçirilməsi məqsədəuyğun hesab olunur.

**Nəticə**

Aparılmış təhlillər göstərir ki, akademik nitqdə etik kommunikasiya prinsiplərinə riayət olunması elmi fəaliyyətin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Hörmət, dürüstlük, obyektivlik və məsuliyyət kimi prinsiplər akademik mühitdə sağlam ünsiyyətin fprmalaşmasına xidmət edir.

Bu prinsiplərin təhsil prosesində sistemli şəkildə tətbiqi tələbələrin kommunikativ bacarıqlarının inkişafına, akademik mədəniyyətin möhkəmləndirilməsinə və elmi əməkdaşlığın genişlənməsinə müsbət təsir göstərir. Aparılmış araşdırma göstərir ki, etik prinsiplərə riayət edilməsi akademik mühitdə etimadın, obyektivliyin və elmi məsuliyyətin formalaşmasına xidmət edir. Müasir rəqəmsal dövrdə etik kommunikasiya problemlərinin artması bu sahənin daha dərindən öyrənilməsini zəruri edir. Akademik etikaya əsaslanan kommunikasiya modeli elmi inkişafın və sağlam akademik mühitin formalaşmasının əsas şərtlərindən biri hesab edilə bilər.

**Ədəbiyyat**


1. Abdullayev, A. (2018). *Nitq mədəniyyəti və kommunikasiya etikası*. Müəllim nəşriyyatı.
2. Cəfərov, N. (2019). *Azərbaycan dilinin müasir problemləri və akademik ünsiyyət məsələləri*. Elm.
3. Əbdülhəsənov, T., Əmrahova, M. (2021). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənni üzrə tədris proqramı*. UNEC nəşriyyatı.
4. Əliyeva, L. (2022). *Akademik yazı və elmi üslubun əsasları*. Təhsil nəşriyyatı.
5. Həsənov, R. (2021). Azərbaycan siyasi xadimlərinin XX əsrin əvvəllərində mövcud olan siyasi sistemlərdəki yeri. *Akademik Tarih ve Düşünce Dergisi, 8*(2), 703–718. DergiPark məqaləsi
6. Hüseynova, N. (2023). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya*. Bakı MMC.
7. Məmmədli, N. (2021). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya*. Elm və təhsil.
8. Məmmədova, S. (2017). *Elmi kommunikasiya və nitq mədəniyyəti*. ADPU nəşriyyatı.
9. Qəhrəmanova, Ç., Paşayeva, A. (2023). *Azərbaycan dilində işgüzar və akademik kommunikasiya* (Dərslik). UNES nəşriyyatı.
10. Rüstəmova, A. (2020). *Azərbaycanda informasiya cəmiyyətinin inkişafının fəlsəfi problemləri: Dil və kommunikasiya*. Azəri Poliqrafiya.
11. Teymurlu, Z., Qəmbərova, S. (2025). Akademik kommunikasiyada Azərbaycan dilinin yeri. *Azərbaycan dili və ədəbiyyat tədrisi*, Xüsusi buraxılış**,** 82–91. https://doi.org/10.48445/z3812-3348-2221-h
12. Vəliyev, E. (2024). *Rəqəmsal mühitdə akademik kommunikasiya problemləri*. Elm və təhsil nəşriyyatı.